# Ümummilli Liderlə Azərbaycanın adı qoşa çəkilir

***Kökləri əsrlərə söykənən tariximizdə zamanın sınağından keçmiş bir mənəviyyat qatı var, onu yaradan, dünyaya tanıdan, şəxsiyyəti ilə cahanı heyran qoyan Ulu Öndər Heydər Əliyev mənalı ömür yaşadı. Tale onu mübarizə üçün yaratmışdı, böyük bir imperiyanın haqsızlığına qarşı mərd-mərdanə dayandı, əyilmədi, sınmadı, hər an mübarizəyə hazır oldu. Dünya gördü ki, Heydər Əliyev əfsanələri reallığa, tənəzzülü inkişafa çevirən nadir şəxsiyyətdir, qətiyyətli dövlət başçısıdır. Həm də Lider kimi tarix yaratdı. Tarix yaratmaq onu yazmaqdan qat-qat çətin və məsuliyyətlidir. Ulu öndər Heydər Əliyev də tarixin böyük bir salnaməsini yaratdı.***

Həyatı, ömür yolu, dövlətçilik məharəti, azman fəaliyyəti, güclü siyasəti, mənəvi ucalığı "dünya bir pəncərədir, hər gələn baxıb gedər" fəlsəfəsini aşıb keçdi, dövrana sığmadı, baxaraq keçib getmədi, Azərbaycan adlı məmləkətin taleyini dəyişdi, parçalamağa girəvə güdənlərin caynaqlarından onu xilas etdi, dahilik missiyasını şərəflə yerinə yetirdi. Yeni, müasir, demokratik Azərbaycan yaratdı.

Tarixin səhifələri təzadlarla doludur. Ulu Öndər Heydər Əliyev tarixi gözəl bilirdi, siyasətin dərin qatlarını müəyyən etməkdə çox mahir idi. XX əsrin 80-cı illərində böyük bir imperiyanın, 104 milləti bir bayraq altına yığan, sovetlər birliyinin başında dayananlardan biri olmuşdur. 1990-cı ildə sovet imperiyası dağılmağa başlamışdır. Qeyd edək ki, bu, bəşər tarixində öz-özünə dağılan ilk imperiyadır. Uzun illər ərzində sovetlər birliyinə rəhbərlik etmiş L.Brejnev xəstə halı ilə dövləti idarə edə bilmirdi. Hakimiyyət olimpinə ən layiqli namizəd Heydər Əliyev idi. Qısqanclıqla onun yolunu kəsdilər və Ulu Öndər imperiyanın dağılmasını qabaqcadan görərək tutduğu yüksək vəzifələrdən istefa verdi. Lakin onun varlığı hakimiyyətdəkiləri və onların əlaltıları olan erməniləri narahat edirdi. 1990-cı ildə Qanlı Yanvar hadisələrindən sonra xalqın öz qüdrətli rəhbəri ilə birləşəcəyindən qorxan imperiya Heydər Əliyevə qarşı repressiya planları hazırladı və həyata keçirməyə çalışdı. Respublika rəhbərləri də hər vəchlə onun Azərbaycana qayıtmasına mane olurdular. Tarixin bu məsuliyyətli və çətin, lakin həlledici dövründə doğma xalqı ilə olmağı, ona kömək etməyi vacib bilən Heydər Əliyev 1990-cı il iyulun 20-də Bakıya gəldi. Xalq bu gəlişi böyük ümid və ruh yüksəkliyi ilə gözləyirdi. Lakin iqtidar, ondan hakimiyyət bölgüsü gözləyən müxalif qüvvələr Heydər Əliyevin Bakıda qalmasına hər cür manea törədirlər. İyulun 22-də Naxçıvana getdi. Dahi lider özü bu günləri xatırlayaraq deyirdi: "1990-cı ilin yayı idi. Mən buraya gələrkən Naxçıvanı çox çətin bir vəziyyətdə gördüm. Amma eyni zamanda özümü çox rahat hiss etdim. Moskvada məni təqib edirdilər. Hətta yanvar hadisələrindən sonra hərəkətlərimə görə mənə qarşı repressiya planları hazırlanmışdı və onları həyata keçirmək istəyirdilər. Bakıya gələndə xalq tərəfindən mənim gəlişim böyük ruh yüksəkliyi ilə qəbul olundu, lakin hakimiyyətdə olan ayrı-ayrı şəxslər tərəfindən Bakıda yaşamağıma imkan verilməsədə, mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan məni qucaqladı, bağrına basdı. Son illər çəkdiyim bütün əzab-əziyyəti unutdum. Görünür, mənim Naxçıvana gəlişim taleyin işi imiş". Moskvada tutduğu vəzifədən istefa verəndən sonra, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü Ulu Öndəri çox narahat edirdi. Ümummilli Lider deyirdi ki,məndə Vətənə qayıtmaq, xalqla bir yerdə olmaq, bir yerdə yaşamaq arzusu gündən-günə artırdı. O ağır dövrdə bütün Azərbaycan xalqının qəzarını, mənə olan münasibətini, qayğısını hiss edirdim. Ulu öndər Heydər Əliyev iyulun 22-də Naxçıvanın "Azadlıq" meydanında 80 mindən çox adamın iştirakı ilə keçirilən izdihamlı mitinqdə çıxış etdi. Xalqın nümayəndələri ilə görüşlər keçirdi. Heydər Əliyev xalqı azadlıq, müstəqillik uğrunda mübariz olmağa çağırdı.Ulu öndər Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetlərinə deputat seçildi. O, müdrik, uzaqgörən siyasəti ilə xalqın azadlıq mübarizəsini doğru yola istiqamətləndirdi. Xalq Ulu Öndər Heydər Əliyevin Naxçıvana qayıtdığı 1990-cı il 22 iyul gününü yaddaşına xilaskarlıq günlərinin başlanğıc tarixi kimi yazdı. Çünki qaranlıq və ümidsizliyə, səfalət və fəlakətə sürüklənmiş Naxçıvanın işıqlı, ağ günləri və sabaha olan inamı məhz bu gündən, bu tarixdən yazılmağa başladı.

Ulu Öndərin Naxçıvana dönüşündə bu qədim diyar həmin dövrdə siyasi hakimiyyətin səriştəsizliyi üzündən blokadanın yaratdığı problemlər məngənəsində məhv olmaq təhlükəsilə üzbəüz qalmışdı. Müdrik liderin Naxçıvana qayıdışı Naxçıvan üçün bir xilas, naxçıvanlılar üçün bir ümid oldu. Dahi liderin buradakı misilsiz dövlətçilik fəaliyyəti böyük strateji əhəmiyyət daşıyan Naxçıvanın və ümumən Azərbaycanın taleyində çox mühüm rol oynadı. Dahi lider Heydər Əliyevin şəxsi nüfuzu, mahir diplomatiyası və uzaqgörən siyasəti nəticəsində hər tərəfdən blokadaya salınmış Naxçıvanın sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün danışıqlar aparıldı, uğurlu nəticələr əldə edildi. Ulu Öndərin böyük tarixi missiyası olaraq Qars müqaviləsinin şərtlərinin yenilənməsi ilə bağlı uzaqgörən fəaliyyəti qardaş Türkiyə Cümhuriyyəti ilə Naxçıvan arasında əsl isti münasibətlərin başlamasına imkan verdi. İki qardaş ölkə arasında "Ümid" körpüsünün açılışı tarixən bir olan iki qardaş xalqın qəlbinə gedən ümid telləri oldu. Ulu Öndər Türk dünyası ilə əlaqələr qurmağa başladı. Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşadan xalqa müraciət edərkən dedi: "Heydər Əliyevin gələcək fəaliyyəti üçün Naxçıvan dövrünün böyük əhəmiyyəti var. Xalq məhz onu özünə rəhbər seçdi, bu, demokratiyanın əsl təntənəsi idi. ...Naxçıvan, demək olar ki, blokadada boğulurdu, onlar isə Naxçıvana qarşı təxribatlar törədirdilər, desant göndərirdilər, çevrilişə cəhd edirdilər. Sanki istəyirdilər ki, Naxçıvan da işğal altına düşsün. Ancaq xalq buna imkan vermədi, öz lideri ətrafında sıx birləşmişdir və bir daha demək istəyirəm, məhz Heydər Əliyevin qətiyyəti, fəaliyyəti nəticəsində Naxçıvan torpaqları erməni işğalına məruz qalmadı".

Ulu öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti xalqımızın çoxəsrlik dövlətçilik tarixinə qızıl hərflərlə yazılıb. Dahi şəxsiyyətin qətiyyəti, cəsarəti və uzaqgörənliyi nəticəsində Azərbaycan ötən əsrin sonlarında çox ağır sınaqlardan şərəflə keçib, müstəqilliyini itirmək təhlükəsi sovuşub, vətəndaş müharibəsinin qarşısı alınıb, respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni tərəqqisində misilsiz nailiyyətlər qazanılıb. Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti, xilaskarlıq missiyası, Azərbaycanın müstəqilliyinin bərpası və möhkəmləndirilməsindəki misilsiz xidmətləri tariximizin ən şərəfli səhifələrindən biridir. Cəsarətlə deyə bilərik ki, bütün türk dünyasının lideri Heydər Əliyev şəxsiyyətinə, onun dühasına olan xalq sevgisi zaman-zaman öz təsdiqini tapıb. Nə qədər Azərbaycan var, ulu öndər Heydər Əliyev böyüklüyü yaşayacaq, nəsildən-nəslə ötürüləcək. Dövlətçilik tariximizin lideri, ulu öndər Heydər Əliyev xalqını, Vətənini ürəkdən, böyük məhəbbətlə sevirdi. Azərbaycanlı olmağı ilə həmişə fəxr edən ulu öndər bütün mənalı ömrünü dövlətimizin müstəqilliyinin qorunmasına, ölkəmizin inkişafına və tərəqqisinə həsr edib. Xalqımızın görkəmli oğlu Heydər Əliyevin hakimiyyətə qayıtdığı 1993-cü il iyunun 15-i Azərbaycan tarixinin ən parlaq səhifəsi kimi yaddaşlara əbədi həkk olunub. Həmin tarixdən sonra ölkənin ictimai-siyasi, sosial-iqtisadi, hərbi və mədəni həyatında əsaslı dönüş başlandı, əmin-amanlıq bərqərar oldu. Dahi insanın ən dəyərli kəlamlarından biri belədir ki, müstəqilliyi qazanmaq nə qədər çətindirsə, onu qoruyub saxlamaq ikiqat çətin və məsuliyyətlidir. Azərbaycana ikinci dəfə rəhbərliyi dövründə, 13 il ərzində Heydər Əliyev bir ərsədə görüləcək işləri həyata keçirdi.

1996-cı ilin dekabr ayında Lissabonda ATƏT-in zirvə toplantısında təşkilatın 54 üzvündən 53-ü Qarabağın Azərbaycan torpağı olduğunu qəbul etdi. Bütün bu beynəlxalq platformalarda Heydər Əliyev Azərbaycan xalqını, respublikasını çox böyük bacarıqla təmsil etmişdi. Lissabonda əldə edilən uğur onun nəticəsi idi. Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına yeni ruh, yeni şövq və inam verdi. Qonşu ölkələrlə sülh üçün səy göstərilməli və tezliklə Azərbaycan iqtisadiyyatı istehsala, əsaslanmalı idi. Bunun üçün dənizə çıxışı olmayan Mərkəzi Asiya və Qafqaz yolu ilə dünyaya çıxmalı idi. Transqafqaz (İpək yolu) yolu dünyanın diqqətini cəlb etdi. Bu layihə Bakıda keçirilən toplantı ilə gündəliyə çıxdı. Ölkənin sərvətləri millətin sərvətlərinə çevrilməli idi. Dənizin və ya yerin altındakı təbii sərvətlərin işləməsi üçün çox mühüm bir addım atılmışdır və Heydər Əliyev "Əsrin müqaviləsi"ni imzalamışdır: Bakı-Tbilisi-Ceyhan neft kəməri xəyal idi, gerçək oldu. Qısa vaxt ərzində inşa edilən Aktau-Bakı-Tbilisi-Ceyhan neft kəməri həm Tengiz bölgəsindəki Qazaxıstan neftini, həm də Azərbaycan neftini Aralıq dənizinə çatdırır. "Şahdəniz" qazı artıq Avropa üçün "enerji terminalı"dır. Azərbaycan nefti və qazı qardaş Türkiyə üzərindən dünya bazarlarına çıxarılır. Ulu Öndər marksist-kommunist idarəçiliyi və iqtisadi sistemində olmuş Azərbaycanı demokratik və azad təşəbbüsə əsaslanan müstəqil dövlətə çevirdi. Türkiyənin keçmiş Prezidenti Süleyman Dəmirəl Heydər Əliyevi türkün böyük övladı adlandıraraq deyirdi: "Azərbaycan müstəqil milli dövlətinin varlığı, türk dünyası üçün, Türkiyə üçün və Azərbaycan üçün möhtəşəm bir hadisədir. Bu dövlətin yenidən qurulmasında, möhkəmlənməsində, güclənməsində, Türkiyə və dünya ilə əlaqələr qurmasında Heydər Əliyevin heç bir ölçüyə sığmayan, unudulmaz, böyük xidməti vardır. Zəngin təcrübəsi, bacarığı, qətiyyəti, uzaqgörənliyi, sülhsevərliyi, Azərbaycana və Azərbaycan xalqına olan sonsuz sevgisi, türk tarixinə, mədəniyyətinə və türklüyə bağlılığı və vətənsevərliyi hər cür tərifdən yüksəkdir".

Azərbaycanın yenidən qurulmasında, möhkəmlənməsində, güclənməsində Türkiyə və dünya ilə əlaqələr yaratmasında Heydər Əliyevin əvəzsiz, unudulmaz böyük xidmətləri vardır. Ulu Öndər dünya miqyaslı dövlət adamıdır. "Türkiyə-Azərbaycan münasibətləri əbədidir. Heç bir şey onu zədələyə bilməz" sözləri də ona məxsusdur. Dahi insan Dədə Qorqudun kəlamlarını deyirdi: "İşimiz avand, torpaqlarımız bərəkətli olsun. Çağlayıb axan sularımız qurumasın, ümidimiz üzülməsin, qanadlarımız qırılmasın, ocağımız yanar dursun, çırağımız heç vaxt sönməsin". Ulu Öndər Azərbaycanın taleyini özü kimi inandığı İlham Əliyevə etibar etdi. Gənclik ruhu, vətənpərvərlik ideyaları və siyasi qətiyyətilə liderlik kürsüsünə qədəm qoyan Prezident cənab İlham Əliyevin tarixi missiyası ilə ölkəmizin həyatında yeni bir mərhələ başlandı. Azərbaycan yeni mərhələdə bütövlükdə regionun ən güclü ordusu, dayanıqlı və sabit iqtisadi inkişafı, kosmik gücü olan nüfuzlu, inkişaf etmiş və yenilməz ölkəsinə çevrildi. Qüvvətli və qüdrətli Azərbaycan bölgədəki gücünü uzaqgörən və Müzəffər Ali Baş Komandan İlham Əliyevin diplomatik bacarığı və bütün tapşırıqları vaxtında, uğurla icra etməyə qabil Müzəffər Ordumuzla 2020-ci ilin noyabrında 44 günlük Vətən müharibəsində nümayiş etdirdi. Ölkəmiz Lələtəpə və Günnüt zəfərinin ardından xainliyi yerə qoymayan mənfur ermənilərə daha qətiyyətli cavabı məhz 44 günlük Vətən müharibəsində verdi. Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandanın əmri ilə erməni hərbi təcavüzünə qarşı uğurlu əkshəmlə əməliyyatı həyata keçirdi. Şir ürəkli Azərbaycan əsgərləri dünyanın hərb tarixinə qızıl hərflərlə yazılan döyüş əməliyyatları nümayiş etdirdi, torpaqlarını işğaldan azad etdi. İndi Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı layihələr icra edilir, keçmiş məcburi köçkünlər öz doğma torpaqlarına qayıdırlar, yaşamağa, qurmağa…

**Salman ALIOĞLU,**
**"Respublika".**